AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

MUĞAM SİNTAKSİSİNƏ YENİ TƏHLİL METODUNUN TƏTBİQİ MƏSƏLƏLƏRİ
(Azərbaycan "Zabul-Segah"ı və İran "Segah"ı instrumental dəstgahları əsasında)

İxtisas: 6213.01 – "Musiqi sənəti"

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Şamil Əli oğlu İsmayılov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru
Gültəkin Baycan qızı Şamilli

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
İradə Tofiq qızı Köçərli

Doç. Dr.
Mehmet Sait Halim Gençoğlu

sənətşünaslıq üzrə fəlsəfə doktoru
Ruslan Əkrəm oğlu Tağıyev

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən FD 2.55 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq doktoru, professor
Kamilə Hüseyn qızı Dadaş-zadə

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru
Fərdin İlham oğlu Məhəmmədzadə

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, professor
Ülkər Sabir qızı Əliyeva

DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Muğam sənəti Azərbaycan xalqının musiqi mədəniyyətinin ən qiymətli irs nümunələrindən biridir. Muğamın elmi baxımdan tədqiqi, mürəkkəb və eyni zamanda böyük məsuliyyət tələb edən bir sahədir. Bu sahədə aparılan elmi araşdırmalar göstərir ki, muğam sənətinin struktur və funksional mexanizmlərinin dərindən öyrənilməsi, musiqişünasdan həm nəzəri bilik, həm də praktik təcrübə tələb edir.

Aparılan müşahidə və təhlillər göstərir ki, Azərbaycan muğam ifaçılığı elmi-nəzəri əsasa malikdir. Buradan belə bir nəticə çıxır ki, qədim ustad muğam ifaçıları həmin elmi-nəzəri əsaslara dərindən bələd olduqları üçün onun icra qayda-qanunlarına ciddi riayət etmişlər. Lakin həmin elmi-nəzəri əsaslar haqqında məlumatların nə yazılı, nə də şifahi formada günümüzə qədər gəlib çatmaması muğam sənətinin elmi baxımdan öyrənilməsində müəyyən boşluqların yaranmasına səbəb olmuşdur. Görünür, muğam ifaçılığının şifahi şəkildə, ustad-şagird münasibətləri vasitəsilə ötürülməsi tarixi prosesində həmin elmi-nəzəri əsaslar tədricən unudulmuşdur. Bu səbəbdən muğamlar müasir tədris sistemində ustad ifa üslubunun yamsılanması və mexaniki şəkildə təkrarlanması metodu ilə öyrədilir. Belə yanaşma bir tərəfdən muğamın orijinallığını qorumağa xidmət etsə də, digər tərəfdən ifaçılıq prosesində fərdi yaradıcılıq təşəbbüslərinin məhdudlaşmasına gətirib çıxarır. Nəticədə, muğam icrasında əzbərçilik və şablon təfəkkür üstünlük qazanır ki, bu da sənətin elmi inkişafına müəyyən maneələr törədir.

Fikrimizcə, muğam sənətinin gələcək inkişafı üçün onun yalnız ənənəvi ifa modellərinə deyil, həm də elmi-nəzəri təhlil metodlarına əsaslanan sistemli yanaşmaya ehtiyac vardır. Bu, həm muğamın daxili qanunauyğunluqlarının dərin elmi izahına, həm də müasir pedaqoji prinsiplər əsasında tədris prosesinin yenilənməsinə şərait yarada bilər.

Tərəfimizdən Azərbaycan muğamları ilə yanaşı, Yaxın Şərq ölkələrinin, o cümlədən İran, Türkiyə, İraq məqam nəzəriyyəsinin və ifaçılığının, eləcə də orta əsr musiqi risalələrinin tədqiq olunması və muğam tədrisində qazanılmış pedaqoji təcrübə sayəsində, muğam ifaçılığına, onun məqam-melodik quruluşuna fərqli baxımdan

yanaşılmışdır. Muğam strukturunu təşkil edən, lakin bu günədək lazımi dərəcədə qiymətləndirilməmiş struktur elementlərin müəyyən edilməsi, mövcud elmi yanaşmaların məhdudluğunu üzə çıxarır. Bu isə muğam təhlilinin yeni elmi-metodoloji əsaslar üzərində, yenidən tədqiqini zəruri edir.

Aparılan tədqiqatlar nəticəsində muğamın daxili quruluşunda baş verən bütün ifaçılıq və məqam fəaliyyəti müəyyən olunaraq ayrılmış, onların funksiyaları, inkişaf mexanizmləri izah olunmuş və terminləşdirilmişdir. Təqdim olunan təhlil metodunun nəzəri əsasları, muğamın ifaçılıq və məqam əsasını əlaqəli şəkildə özündə birləşdirir. Nəticədə muğamların ifasında baş verən əsas hərəkətlər (gedişlər) üzə çıxarılmış və muğam törənişinin ümumi qanunauyğunluqları müəyyən edilmişdir. Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" instrumental muğam dəstgahları yeni metodla təhlil edilmişdir.

Azərbaycan muğamı müxtəlif elmi aspektlərdən, o cümlədən tarixi inkişafı, muğam dəstgahların struktur quruluşu, terminoloji-etimoloji məsələlər, eləcə də məqam, melodik, ritmik və tematik xüsusiyyətlər baxımından ardıcıl şəkildə araşdırılmışdır. Müxtəlif dövrlərdə aparılan tədqiqatlar muğam nəzəriyyəsinin formalaşması və sistemləşdirilməsində mühüm rol oynamışdır. Bu sahədə bir sıra görkəmli alimlərin elmi fəaliyyəti xüsusi qeyd olunmalıdır. Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" adlı fundamental əsəri[1], milli musiqi nəzəriyyəsinin elmi təməlinin qoyulmasında mühüm mərhələ olmuşdur. M.İsmayılovun "Azərbaycan xalq musiqisinin janrları"[2] və "Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-melodik oçerklər"[3] adlı tədqiqatları, professor R.Zöhrabovun "Azərbaycan muğamları"[4], "Azərbaycan muğamlarının nəzəri problemləri"[5], "Rast muğam dəstgahının nəzəri

[1] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2019. – 360 s.

[2] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları / M.C.İsmayılov. – Bakı: İşıq, – 1984, – 100 s.

[3] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər / M.C.İsmayılov. – Bakı: Elm, – 1991. – 120 s.

[4] Zöhrabov, R.F. Azərbaycan muğamları / R.F.Zöhrabov. – Bakı: Təhsil, – 2013. – 336 s.

[5] Зохрабов, Р.Ф. Теоретические проблемы азербайджанского мугама. / – Баку: Шур, – 1992, – 247 с.

əsasları”[6], “Çahargah muğam dəstgahının nəzəri əsasları”[7] və “Zərbi-muğamlar”[8] kimi əsərləri, E.Babayevin “Azərbaycan muğamının nəzəri əsasları”[9] adlı araşdırması, R.Məmmədovanın “Muğam-sonata qovşağı”[10], “Проблемы функциональности в азербайджанском мугаме”[11], “Azərbaycan musiqisinin nəzəri problemləri”[12] adlı əsərləri muğam nəzəriyyəsinin elmi-nəzəri bazasının formalaşmasında və inkişafında xüsusi əhəmiyyəti vardır.

Azərbaycan muğam sənətinin müxtəlif aspektlərinin elmi əsaslarla araşdırılması sahəsində bir çox tanınmış musiqişünaslar muğam elminin müəyyən istiqamətlərinin öyrənilməsində mühüm elmi nəticələr əldə etmişlər. G.Abdullazadə[13], R.İmrani[14] və S.Fərhadova[15] öz tədqiqatlarında əsasən muğam tarixinin mərhələli inkişafını, Z.Səfərova, G.Şamilli[16] və S.Ağayeva[17] isə Azərbaycan və Şərq musiqi mədəniyyətinə dair Orta əsr musiqi risalələrini araşdırmışlar.

---

[6] Zöhrabov, R.F. “Rast” muğam dəstgahının nəzəri əsasları / R.F.Zöhrabov. – Bakı: Mars-Print, – 2002. – 146 s.

[7] Zöhrabov, R.F. “Çahargah” muğam dəstgahının nəzəri əsasları / R.F.Zöhrabov. – Bakı: Mars-Print, – 2000. – 130 s.

[8] Zöhrabov, R.F. Zərbi muğamlar (musiqi-nəzəri tədqiqat). / R.F.Zöhrabov. – Bakı: Mars-print, – 2004. – 406 s.

[9] Babayev, E.Ə. Azərbaycan muğamlarının nəzəri əsasları. Dərs vəsaiti. / E.Babayev. – Bakı: “MTM” İnnovation MMC, – 2018. – 368 s.

[10] Məmmədova, R.A. Muğam-sonata qovşağı / R.A.Məmmədova. – Bakı: İşıq, – 1989. – 132 s.

[11] Мамедова Р.А. Проблемы функциональности в азербайджанском мугаме. – Баку: Элм, – 1989, – 163с.

[12] Məmmədova, R.A. Azərbaycan musiqisinin nəzəri problemləri / R.A.Məmmədova. – Bakı: Avropa, – 2020. – 244 s.

[13] Abdullazadə, G.A. Qədim və Orta əsrlərin musiqi mədəniyyəti, tarixi-fəlsəfi təhlil / G.A.Abdullazadə. – Bakı: – Qartal, – 1996. – 292 s.

[14] İmrani, R.H. Azərbaycan muğam janrının yaranması və inkişaf tarixi. / R.H.İmrani. – Bakı: ADPU mətbəəsi, – 1994. – 251 s, İmrani, R.H. Muğam fəlsəfəsi / R.H.İmrani. – Bakı: Elm, – 2011. – 662 s, İmrani, R.H. Muğam tarixi / R.H.İmrani. – Bakı: Elm, – 1998. – 280 s.

[15] Fərhadova, S.M Azərbaycan muğam dəstgahının tarixi kökləri / S.M.Fərhadova. – Bakı: Elmin inkişafı fondu, – 2018. – 198 s.

[16] Şamilli, G.B. Mirzəbəy musiqi risaləsi / G.B.Şamilli. – Bakı: Azərbaycan, – 1995. – 88 s.

[17] Ağayeva, S.X. Ruhperver bir XVII yüzyıl müzik teorisi kitabı / S.X.Ağayeva, R.Uslu. – Ankara: Genel Dağıtım Ürün yayınları, – 2008. – 148 s.

M.İsmayılovun tədqiqatlarında məqam sistemində dayaq və istinad pərdələrinin rolu, məqamların qarşılıqlı qohumluq münasibətləri elmi şəkildə əsaslandırılmışdır. Professor R.Zöhrabov muğamların məqam quruluşunu, melodik və ritmik xüsusiyyətlərini təhlil etmişdir. E.Babayev muğamda ritm, intonasiya və özək mövzunun inkişaf qanunauyğunluqlarını araşdıraraq, muğamın daxili strukturunda tematik bütövlüyün saxlanması prinsiplərini müəyyən etmişdir. A.Quliyev muğamın melodik dramaturgiyasında təzad prinsipini və onun bədii ifadə imkanlarını araşdırmış, S.Bağırova isə muğam forması və onun daxili məntiqi strukturuna dair elmi nəticələr təqdim etmişdir. M.Quliyev muğam ifaçılığı problemlərinə həsr etdiyi tədqiqatlarında ifa ənənələrinin qorunması, improvizasiya prinsipləri və ifaçılıq üslublarının inkişaf məsələlərinə elmi-nəzəri baxış gətirmişdir.

Bundan əlavə, S.Bağırova[18], C.Həsənova[19], Ş.Mahmudova[20], F.Çələbiyev[21], A.Nəcəfzadə[22], L.Hüseynova[23], R.Musazadə[24], F.Baxşəliyev[25], F.Xalıqzadə[26] və İ.Şıxəliyev[27] kimi tədqiqatçıların elmi əsərləri, məqalələri muğam elminin müxtəlif istiqamətlərinin

[18] Bağırova, S.Y. Azərbaycan muğamı. Məqalələr, məruzələr, tədqiqatlar / S.Y. Bağırova. – Bakı: Elm, – 2007. – 251 s.

[19] Həsənova, C.İ. Üzeyir Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları / C.İ.Həsənova. – Bakı: Mars-print, – 2009. – 320 s.

[20] Махмудова, Ш.Г. Тематизм азербайджанского мугама / Ш.Г. Махмудова. – Баку: Шур, – 1997, – 132 с.

[21] Челебиев Ф. И. Морфология дастгяха: / Дис. на соиск. ученой степении д-ра искусствоведения. / – Санкт-Петербург: Российский институт истории искусств, – 2009. – 725 с.

[22] Nəcəfzadə, A.İ. Muğam / A.İ.Nəcəfzadə, V.M.Məmmədəliyev. – Bakı: Ecoprint, – 2017. – 160 s.

[23] Hüseynova, L.Ş. Türk xalqlarının musiqisi. / L.Ş.Hüseynova. – Bakı: AFPoliqrAF, – 2023. –176 s.

[24] Musazadə, R.M. Muğamın tədrisi metodikası / R.M.Musazadə. – Bakı: MBM, – 2012. – 192 s.

[25] Baxşəliyev, F. Muğam sənəti ilə təsəvvüf fəlsəfəsinin əlaqə prinsipləri // "Muğam aləmi" V Beynəlxalq festivalı çərçivəsində keçirilən "Azərbaycanda muğam elmi: reallıqlar və perspektivlər" elmi simpoziumunun materialları, – Bakı: 2-9 mart, – 2018. – s. 124-129.

[26] Xalıqzadə F.X. Üzeyir Hacıbəyli və folklor. – Bakı: Şərq-Qərb, – 2014. – 276 s.

[27] Şıxəliyev, İ.N. Azərbaycan musiqisinin lad nəzəriyyəsi / İ.N.Şıxəliyev. – Bakı: Zərdabi nəşriyyat-poliqrafiya MMC, – 2015. – 168 s.

inkişafına dəyərli töhfə vermişdir.

Orta əsr Şərq musiqişünaslarının risalələri sayəsində həmin dövrün məqam musiqisinin nəzəri prinsipləri barədə ətraflı məlumat əldə etmək mümkündür. Bu mənbələr tarixi əhəmiyyət daşımaqla bərabər həm də müasir muğam nəzəriyyəsinin formalaşmasında elmi baza kimi çıxış edir. Bu baxımdan, XIII əsr Azərbaycan və Şərq musiqi nəzəriyyəçilərindən Səfiəddin Urməvinin "Kitabül-Ədvar"[28] və "Şərəfiyyə"[29] risalələri, XIV–XV əsr görkəmli alim Əbdülqadir Marağalının "Came əl-Əlhan"[30], "Məqasid əl-Əlhan"[31] əsərləri, XV əsr tədqiqatçısı Fətullah Şirvaninin "Məcəllə fil-musiqa"[32] risaləsi, XVII əsr müəllifi Mirzə bəyin "Musiqi risaləsi"[33], XIX–XX əsrlərin görkəmli Azərbaycan musiqişünası Mir Möhsün Nəvvabın "Vüzuhül-ərqam"[34] əsəri, həmçinin Əbdürrəhman Caminin "Трактат о музыке"[35] ("Musiqi haqqında risalə") və Dərviş Əli Çənginin "Среднеазиатский трактат по музыке"[36] ("Orta Asiya musiqisinə dair risalə") kimi mənbələr qədim məqam nəzəriyyəsini əks etdirən ən dəyərli elmi əsərlər sırasına daxildir. Bu risalələrdə təsbit olunan nəzəri müddəalar: pərdə sistemi, məqamların quruluş prinsipləri, modulyasiya qaydaları və ritmik modellər Azərbaycan muğam sənətinin nəzəri təməlini anlamaq baxımından bu gün də mühüm

[28] Səfərova, Z.Y. Səfiyəddin, Urməvi. Kitabül-ədvar / ön söz və şərhlərin müəllifi Z.Y.Səfərova. – Bakı: –Şərq-Qərb, – 2006. – 208 s.

[29] Səfərova, Z.Y. Azərbaycanın musiqi elmi XIII-XX əsrlər / Z.Y.Səfərova. – Bakı: Azərnəşr, – 2006. – 544 s.

[30] Ubeydullah, S. Abdülkadir Meragai ve Camiu'l-elhan'ı: / Doktora tezi. / – İstanbul: – 2007. – 276 s.

[31] Uslu, R. Merağiden II Murada müziğin maksatları. "Makasidul-Elhan" /– Ankara: Atatürk Kültür Merkezi Başkanlığı. – 2015. – 240 s.

[32] Səfərova Z.Y. Fətulla Şirvani. Musiqi haqqında risalə / ərəb dilindən tərc. ed. Ə.Əmirəhmədov. Z.Y.Səfərova. – Bakı: Şərq-Qərb, – 2006. – 216 s.

[33] Şamilli, G.B. Mirzəbəy musiqi risaləsi / G.B.Şamilli. – Bakı: Azərbaycan, – 1995. – 88 s.

[34] Səfərova, Z.Y. Mir Möhsün Nəvvab. "Vüzuhül Ərqam". / Z.Y.Səfərova – Bakı: Elm, – 1989. – 53 s.

[35] Джами, Абдурахман. Трактат о музыке. / Издательство академии наук Узбекской ССР. – Ташкент: – 1960, – 111 с.

[36] Семёнов, А.А. Среднеазиатский трактат по музыке Дервиша Али (XVII век). Сокращенное изложение персидского (таджикского) текста с введением, примечаниями и указателем. / А.А.Семёнов. – Ташкент: тип. №1, – 1946. – 84 с.

elmi əhəmiyyət kəsb edir.

Muğamların notlaşdırılması istiqamətində bir sıra görkəmli bəstəkar və musiqişünasların fəaliyyəti xüsusi qeyd olunmalıdır. Bu sahədə Müslüm Maqomayevin (1885–1937) "Rast" muğamına, Qara Qarayevin (1918–1982) "Şur" muğamına və Niyazi Tağızadə-Hacıbəyovun (1912–1984) "Şur" və "Rast" muğamlarına aid əlyazma notları, həmçinin Tofiq Quliyevin (1917–2000) "Zabil dəstgahı"[37] və Zakir Bağırovun (1916–1996) "Dügah" muğamına[38] dair dərc edilmiş notaları mühüm addım olmuşdur. Eyni zamanda, Nəriman Məmmədov (1927–2015) tərəfindən "Segah–Zabul və Rahab"[39], "Çahargah və Hümayun"[40], "Bayatı–Şiraz və Şur"[41], "Rast" və "Şahnaz"[42] instrumental dəstgahları, eləcə də "Rast"[43] vokal-instrumental dəstgahının notlaşdırılması, Azərbaycan muğamşünaslığında kompleks təhlil imkanlarını genişləndirmişdir. Bu ənənəni davam etdirən tədqiqatçılar – Fuad Əzimli (1952–2008) "Tar üçün not və muğam məktəbi"[44], Arif Əsədullayev (1949) "İnstrumental muğamlar və onların ifaçılıq məziyyətləri"[45], Əkrəm Məmmədli (1944) "Azərbaycan muğamları (instrumental)"[46] adlı əsərləri ilə muğamların nota alınması sahəsində mühüm elmi və praktik nəticələr əldə etmişlər.

Xanəndə Vahid Abdullayevin (1948–2001) ifası əsasında "Zabul-Segah" vokal dəstgahı tərəfimizdən notlaşdırılmış, lakin dərc

---

[37] Quliyev, T.Ə. Zabil dəstgahı. / T.Ə.Quliyev. – Bakı: Azərnəşr, – 1936. – 52 s.

[38] Bağırov Z.C. Dügah dəstgahı / Z.C.Bağırov. – Bakı: Azərnəşr, – 1936. – 35 s.

[39] Məmmədov, N.H. Azərbaycan muğamları, Zabul Segah və Rəhab. / N.H.Məmmədov. – Bakı: Azərnəşr, – 1965. – 58 s.

[40] Məmmədov, N.H. Azərbaycan muğamları Çargah və Hümayun / N.H.Məmmədov. – Bakı: Azərbaycan Dövlət Musiqi Nəşriyyatı, – 1962. – 38 s.

[41] Məmmədov, N.H. Azərbaycan muğamları "Bayatı-Şiraz" və "Şur" / N.H.Məmmədov. – Moskva: Dövlət Musiqi Nəşriyyatı, – 1962. – 40 s.

[42] Məmmədov, N.H. Azərbaycan muğamları Rast və Şahnaz / N.H.Məmmədov. – Bakı: Azərnəşr, – 1963. – 63 s.

[43] Məmmədov, N.H. Azərbaycan muğamı "Rast" dəstgahı / N.H.Məmmədov. – Moskva: Sovet Bəstəkarları, – 1978. – 110 s.

[44] Əzimli, F.N. Tar üçün not və muğam məktəbi / F.N.Əzimli. – Bakı: R.N.Novruz-94, – 2009. – 316 s.

[45] Əsədullayev, A.M. İnstrumental muğamlar və onların ifaçılıq məziyyətləri / A.M.Əsədullayev. – Bakı: Adiloğlu, – 2014. – 284 s.

[46] Məmmədli, Ə.M. Azərbaycan muğamları / Ə.M.Məmmədli. – Bakı: Azərbaycan, – 2012. – 328 s.

edilməmişdir. Aparılan tədqiqat işində isə yalnız "Zil Zabul" muğam şöbəsinin not materialı təqdim olunur.

Azərbaycan muğam dəstgahlarının tədqiqi prosesində, eyni quruluş prinsiplərinə malik olan İran muğam dəstgahlarının öyrənilməsi və onların nota alınmış variantlarının araşdırılması xüsusi elmi əhəmiyyət kəsb edir. İran musiqi ənənəsində formalaşmış "radif" sistemi, Azərbaycan muğamlarının məqam-struktur quruluşunun müqayisəli şəkildə təhlili üçün dəyərli nəzəri baza rolunu oynayır.

Bu istiqamətdə araşdırılmış əsas mənbələr sırasına aşağıdakı fundamental tədqiqatlar daxildir: F.Fəxrəddini "Taczīye va taḥlīl va sharḥe radife musiqiye İran"[47], H.Formoz "Dastgah dar musiqiye İran"[48], R.Xaleqi "Nazari be musiqi"[49], A.N.Vaziri "Teoriye musiqi"[50], D.Talai "Radif Analysis"[51], J.During "Radife saziye musiqiye sunnətiye İran"[52], N.Fereidooni "Transcription of the Vocal Radif of Traditional Iranian Music according to the performance of Abdollah Davami"[53], A.Eslami "Iranian Music Repertoire (Radif) by Mehdi Solhi (Montazem al-Hokama) and Transcription by Mehdigholi Hedayat (Mokhber al-Saltaneh)"[54], R.Vohdani "The Traditional Music of Iran"[55], L.Mofaxxam-Payan "Les Systèmes de la Musique Traditionnelle de l'Iran (Radif)"[56], A.Ghafari "Radif of

[47] Fakhreddini Farhad. "Taczieye va tahlil va sharhe radife musiqiye İran". – Tehran: Moin, – 2013. – 480 s.

[48] Farhat, Hormoz. "Dastgah dar musiqiye İran". – Tehran: Part, –2001. – 273 s.

[49] Khalegi Ruhollah. Nazari be musigi. – Tehran: Safialishah, – 2015. – I-163 s, – II-275 s.

[50] Vaziri Ali Nagi. "Teoriye musigi". – Tehran: Safialishah, – 2008. – 393 s.

[51] Talai D. Radif Analysis. – Tehran: Ney, – 2016. – 541 s.

[52] During, Jean. Radife saziye musigiye sunnətiye İran. – Tehran: Sorush, – 1991. – 352 s.

[53] Fereidooni, Nima. Transcription of The Vocal Radif of Traditional İranian Music According to the performance of Abdollah davami. – Tehran: Tehran University. – 2004. – 169 s.

[54] Eslami, Amirhossein. İranian Music Repertoire (Radif) by Mehdi Solhi (Montazem al-Hokama) and Transcription by Mehdigholi Hedayat (Mokhber al-Saltaneh). – Tehran: – 2013. 738 s.

[55] Vohdani Reza. The Traditional Music of İran. – Tehran: – 295 s.

[56] Mofaxxam-Payan, L. Les Sistemes de la Musigue Traditionelle de l İran (Radif). Compilation dapres les radifs Aga Mirza Abdollah, Aga Hoseynqoli et Darviş-Xan. Par: Musa Marufi. – Tehran: – 1977. – 180 s.

Master Morteza Neydavood”[57].

Bununla yanaşı, mövzu ilə bağlı bir sıra xarici mənbələr də tədqiq olunmuşdur. Onların sırasında Viktor Vinoqradov[58], Viktor Belyayev[59], İsmayıl Hakkı Özkan[60], R.Kizevetter[61], R.Derlanger[62] və Hamed əl-Saidinin[63] əsərləri qeyd olunmalıdır. Sözügedən müəlliflərin tədqiqatları Yaxın Şərq məqam musiqisinin ümumi nəzəri qanunauyğunluqlarını və tarixi inkişaf istiqamətlərini əhatə etməklə, muğam sənətinin tarixi-nəzəri aspektlərinin dərinləşdirilməsinə xidmət etmişdir.

Aparılan tədqiqatla əlaqədar olaraq bir sıra qədim musiqi risalələri də nəzərdən keçirilmişdir. Orta əsrlərdə yaşamış görkəmli musiqişünaslardan Dimitri Kantemiroğlu (XVII əsr)[64], Hızır bin Abdullah (XV əsr)[65], Yusuf ibn Nizaməddin ibn Yusuf Rumi (XV əsr)[66], Seydi (XV əsr)[67], Dərviş əs-Seyyid Məhməd Əmin[68], Kadızadə Məhməd əl-Tirevi (XVII əsr)[69], Ladikli Məhməd Çələbi (XV əsr)[70], Səlahəddin Safədi (XIII əsr)[71], Qütbəddin Şirazi[72],

---

[57] Ghafari, Ashkan. Radif of Master Morteza Neydavood. Hastan Pub. – Tehran: – 1990. – 129 s.

[58] Виноградов, В.С. Классические традиции Иранской музыки / В.С.Виноградов. – Москва: Советский композитор, – 1982. – 183 с.

[59] Беляев В.М. О музыкальном фольклоре и древней письменности. – Москва: Советский композитор, – 1971. – 234 с.

[60] Özkan, İ.H. Türk müsikisi nazariyati ve üsulleri. / – İstanbul: Ötüken, – 1998. – 686 s.

[61] Kiesewetter. R.G. Musik der Araber. – Leipzig, – 1842, – 125 p.

[62] Derlanger B.R. La Musique Arabe. / B.R.Derlanger. – Paris: – 1949, – 334 p.

[63] Mr.Hamed al Saadi. The İraqi Maqam Performance. / – London.: – 2003, – 87 s.

[64] Tura Y. Kantemiroğlu, D. “Kitabu İlmil-Musiki ala vechil-Hurufat”. / – İstanbul: Yapı kredi yayınları, – 2001, – 695 s.

[65] Özçimi, S. M. Hızır bin Abdullah ve Kitabül-Edvar. / – İstanbul: T.C. Yüksek ögretim kurulu dokumantasyon merkezi, – 1989. – 221 s.

[66] Kamiloğlu, R. Şehri Kirşehri el-mevlevi Yusuf ibn Nizameddin ibn Yusuf Ruminin Risalei musikinin transkribe ve degerlendirilmesi. / – Malatya: T.C. Yükseköğretim kurulu dokumantasyon merkezi, – 1998, – 121 s.

[67] Arısoy, M. Seydinin El-Matla adlı eseri üzerine bir çalışma. / – İstanbul. –1988, – 232 s.

[68] Bardakçı M. Derviş es-Seyyid Mehmed Eminin Tanbur perdeleri risalesi. M.Bardakçı. / – İstanbul: Musikişinas No 4. – 2000. – 39 s.

[69] Nuri Uygun M. Kadızade Tirevi ve Musiki Risalesi. / – İstanbul: – 1990.– 97 s.

[70] Tekin, H. Ladikli Mehmet Çelebi ve er Risaletül Fethiyyesi. / – Niğde: Yüksekoğretim Kurulu Dokümantasiyon Merkezi, – 1999. – 261 s.

Əhməd oğlu Şükrullah (XV əsr)[73], Bədri Dilşad[74] və Əlişah Hacı Bükə (XV əsr)[75] tərəfindən qələmə alınmış risalələr, Şərq məqam musiqisi nəzəriyyəsinin formalaşması baxımından mühüm elmi mənbə kimi qiymətləndirilir.

Tədqiqat zamanı İran muğam musiqisinin analitik təhlilində Gültəkin Şamillinin[76] tərcümələrindən, elmi işlərindən və nəzəri şərhlərindən bəhrələnilmişdir. Alim tərəfindən aparılmış tədqiqatlar, İran rədif sisteminin struktur prinsiplərinin Azərbaycan muğam dəstgahları ilə müqayisəli öyrənilməsinə əhəmiyyətli elmi töhfə vermişdir.

Azərbaycan və İran muğam dəstgahlarının müqayisəli təhlili mövzusunda indiyədək bir sıra elmi-tədqiqat işləri aparılmış, bu istiqamətdə iki dissertasiya işi müdafiə edilmişdir. Həmin tədqiqatlardan biri Sara Kərimşad tərəfindən hazırlanmış "Azərbaycan və İran 'Çahargah' muğamları"[77] adlı dissertasiya işidir. Digəri isə Nərmin Qaralova tərəfindən təqdim olunmuş "Azərbaycan və İran 'Şur' dəstgahlarının müqayisəli təhlili"[78] mövzulu dissertasiyadır. Sözügedən elmi işlərdə əsas diqqət Azərbaycan və İran muğam sistemlərinin struktur xüsusiyyətlərinin, məqam-melodik quruluşunun və intonasiya fərqlərinin müəyyənləşdirilməsinə yönəldilərək daha çox klassik analitik metodologiya çərçivəsində aparılmışdır.

Təqdim edilən tədqiqat işi isə, yuxarıda adları çəkilən alimlərin araşdırmalarından fərqli olaraq, yeni elmi-analitik yanaşma və

---

[71] Tekin, E. Safedinin müzik teorisinin incelenmesi. / – İstanbul: Anabilim Dalı: Müzikoloji, – 2007. – 132 s.

[72] Sema Dinç. Kutbüddîn Şîrâzî'nin Dürretü't-tâc'ındaki mûsikî bölümünün incelenmesi. Doktora Tezi. / – Samsun: – 2021. – 425 s.

[73] Kamiloğlu, R. Ahmed oğlu Şükrullah (1388—1489) ve "Edvarı musiki" adlı eseri. / – Ankara: – 2007, – 177 s.

[74] Ceyhan Adem. "Bedri Dilşadın Murad-namesi" Marmara Üniversitesi Sosyal Bilimler Estitüsü. (Doktora tezi). / – İstanbul: – 1994. – 394 s.

[75] Çakır A."Alişah B. Hacı Bükenin Mukaddimetül Usul adlı eseri". A.Çakır. / – İstanbul: Yüksek Öğretim Kurulu Dokumentasyon Merkezi, – 1999. – 335 s.

[76] Шамилли Г. Классическая музыка Ирана. Правила познания и практики. – Москва: Издательский дом Композитор, – 2007. – 447 с.

[77] Kərimova, S.Ş. Azərbaycan və İran Çahargah muğamının müqayisəli təhlili. Dissertasiya. / S.Ş.Kərimova. – Bakı: – 1996, – 168 s.

[78] Qaralova, N.Z. Azərbaycan və İran "Şur" dəstgahlarının müqayisəli təhlili. Dissertasiya. / N.Z.Qaralova.– Bakı: – 2013. – 158 s.

orijinal təhlil metoduna əsaslanır. Burada həm musiqi-nəzəri, həm də musiqi-praktik aspektlərdən çıxış edilərək muğamların struktur, melodik xüsusiyyətləri çoxsəviyyəli şəkildə təhlil edilir. Qeyd etmək lazımdır ki, Azərbaycan musiqi elmində bu günə qədər Azərbaycan və İran "Segah" muğam dəstgahlarının müqayisəli təhlili ayrıca elmi tədqiqat obyekti kimi işlənməmişdir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti funksional-sintaktik təhlil metodunun struktur və nəzəri tərkib hissələrindən ibarətdir. Bu obyekt çərçivəsində muğamın məqam və melodik quruluşunun yeni analitik baxımdan araşdırılması nəzərdə tutulur.

Tədqiqatın predmetini isə Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" instrumental muğam dəstgahlarının funksional-sintaktik təhlil metodu əsasında müəyyənləşdirilən ifaçılıq xüsusiyyətləri, məqam quruluşu və melodik inkişaf prinsipləri təşkil edir. Araşdırma bu iki muğam dəstgahının kompozisiya və sintaktik quruluşundakı ümumi və fərqli cəhətlərin elmi əsasda müəyyənləşdirilməsinə yönəlmişdir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" instrumental muğamlarının timsalında muğamın daxili quruluşunda baş verən melodik, sintaktik və məqam əlaqələri proseslərinin müəyyənləşdirilməsi, onların terminoloji əsasda sistemləşdirilməsidir. Bundan əlavə, məqsəd funksional-sintaktik təhlil metodunun nəzəri əsaslarının muğam nəzəriyyəsində və muğam tədrisində tətbiqinə nail olmaqdan ibarətdir.

Qeyd olunan sahədə müəyyən elmi nəticələrin əldə edilməsi üçün aşağıdakı məsələlərin həlli nəzərdə tutulur:

- Azərbaycan muğam ifaçılıq ənənələrinin dərin elmi əsaslarla öyrənilməsi, onların qorunub saxlanılması, ifaçılıq sənətinin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi və Azərbaycan muğamşünaslığının elmi-nəzəri inkişafına töhfə verilməsi;
- Yaxın Şərq məqam musiqisi sistemində Azərbaycan məqamlarının tutduğu mövqeyin müəyyənləşdirilməsi, bu əsnada formalaşmış nəzəri baxışlar əsasında Azərbaycan muğamşünaslığı və bəstəkarlıq məktəbinin inkişaf perspektivlərinin genişləndirilməsi;
- Muğam sənətinə dair tarixi və müasir tədqiqat mənbələrinin sistemli şəkildə öyrənilməsi, onların elmi dövriyyəyə gətirilməsi və müqayisəli təhlil üçün metodoloji baza kimi tətbiqi;

- Qədim Şərq musiqi elminin prinsiplərinə söykənən muğam nəzəriyyəsinin elmi əsaslarla və sistemli şəkildə mənimsənilməsi, onun terminoloji və nəzəri çərçivəsinin dəqiqləşdirilməsi.

Tədqiqat metodu. Dissertasiyada tədqiqatın əsas metodu kimi müəllif tərəfindən işlənib hazırlanmış funksional-sintaktik təhlil metodu tətbiq edilmişdir. Bu metodun köməkçi vasitələri kimi analitik, müqayisəli, sistemləşdirici və struktur-semantik metodlardan istifadə olunmuşdur. Bunlarla yanaşı, Orta əsr mənbələrinin müasir nəzəriyyə ilə qarşılaşdırılmasında tarixi-müqayisəli metod, muğam ifaçılığı nümunələrinin notlaşdırılmasında isə empirik müşahidə metodu tətbiq edilmişdir.

Tətbiq etdiyimiz funksional-sintaktik təhlil metodu mövcud muğamşünaslıq metodlarından iki əsas xüsusiyyəti ilə fərqlənir. Birincisi, muğam melodiyasının ifaçılıq fəaliyyətini nəzəri strukturla vahid-sintetik formada birləşdirir – indiyədək bu iki aspekt ayrı-ayrılıqda öyrənilmişdir. İkincisi, muğam melodiyasını yalnız ənənəvi cümlə-fraza-motiv bölgüsü ilə deyil, əsasən gedişlər sistemi ilə təhlil edir. Bu isə muğam melodiyasının daxili hərəkət mexanizmini – yəni nə baş verdiyini deyil, necə baş verdiyini – ilk dəfə sistemli şəkildə ortaya qoyur.

Tədqiqatda irəli sürülən yeni metodoloji yanaşma həmçinin muğamın elmi-nəzəri və ifaçılıq aspektlərinin inteqrasiyasını təmin edir ki, bu da muğamın bütöv struktur modelinin formalaşdırılmasına və onun tədris prosesində tətbiq imkanlarının genişləndirilməsinə şərait yaradır.

Müdafiəyə çıxarılan əsas müddəalar. Tədqiqat işində müdafiəyə çıxarılan əsas elmi müddəalar aşağıdakılardır:

- Funksional-sintaktik təhlil metodunun nəzəri əsaslarının müəyyənləşdirilməsi və muğamın struktur, məqam və melodik prinsiplərinin bu metod çərçivəsində sistemləşdirilməsi;
- Funksional-sintaktik təhlil metodu əsasında, Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" instrumental muğam dəstgahlarının daxili quruluşlarının elmi əsaslarla müəyyən edilməsi;
- Aparılan təhlil nəticəsində muğamın məqam-melodik və ifaçılıq xüsusiyyətlərinin aydınlaşdırılması;
- Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" instrumental muğamlarının oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsi.

Tədqiqatın elmi yeniliyi.

- İlk dəfə olaraq muğamların nəzəri quruluşunun və muğam ifaçılığının ümumi qanunauyğunluqları müəyyənləşdirilmişdir;

- İlk dəfə olaraq, muğamların məqam əsasına və pərdə vəzifələrinə fərqli baxımdan yanaşma nəticəsində "idarəedici pərdələr" ("kök pərdə", "şah pərdə"), "gedişlər" (əsas hərəkətlər), "məqam evi", "məqam dairəsi", "şəkildəyişmiş məqamlar", "məqam təbəqələri", "məqamdaxili I və II inkişaf mərhələləri", "zirvə pərdə", "naxışlar" və bir sıra yeni, həmçinin funksionallığı dəqiqləşdirilmiş terminlər irəli sürülmüşdür;

- İlk dəfə olaraq, muğamın bütün daxili qurumları fərqli baxımdan müəyyənləşdirilmiş, bir-birindən ayrılmış, onların inkişaf qanunauyğunluqları, vəzifələri, nəzəri quruluşu və ifaçılıq xüsusiyyətləri izah edilmiş və terminləşdirilmişdir;

- Funksional-sintaktik təhlil metodu əsasında, Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" instrumental muğamları həm nəzəri, həm də ifaçılıq baxımından, yeni qaydada təhlil edilmişdir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya işində əldə edilmiş nəticələr muğam ifaçıları, musiqişünaslar, etnomusiqişünaslar, muğam tədqiqatçıları və bəstəkarlar üçün praktik və nəzəri baxımdan əhəmiyyətlidir.

Tədqiqatın praktiki əhəmiyyəti aşağıdakı sahələrdə özünü göstərir:

- Orta və ali təhsil səviyyəli musiqi məktəblərində, musiqi kolleclərində, Milli Konservatoriya, Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti kimi təhsil müəssisələrində muğam tədrisinin və ifaçılığının inkişafı;

- "Azərbaycan xalq musiqisinin əsasları" kimi fənlərin tədrisində elmi vəsait, tədris materialı kimi istifadəsi;

- Muğam ifaçılığı və bəstəkarlıq təcrübəsində nəzəri əsaslı yanaşmanın tətbiqi;

- Təqdim olunan konsepsiya əsasında muğam quruluşunu özündə əks etdirən "Solfecio" dərsliyinin hazırlanması.

Aprobasiyası və tətbiqi. Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən, xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan Azərbaycan və xarici dövri elmi nəşrlərdə öz əksini tapmışdır. Mövzu ilə əlaqədar

olaraq, müəllifin yerli və beynəlxalq jurnallarda 12 məqalə və beynəlxalq konfrans materialları dərc edilmişdir.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Etnomusiqişünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiya işinin işarə sayı ilə ümumi həcmi. Dissertasiya işi: Giriş, üç fəsil, doqquz paraqraf, nəticə, ədəbiyyat siyahısı və əlavədən ibarətdir. Dissertasiya işinin struktur bölmələrinin ayrılıqda həcmi: Giriş 13 səhifə 23,192 işarə, I fəsil 85 səhifə 112,633 işarə, II fəsil 106 səhifə 95,857 işarə, III fəsil 37 səhifə 34,899 işarə, Nəticə 7 səhifə 11,610 işarə olmaqla dissertasiya işi İstifadə edilmiş ədəbiyyat və Əlavələr istisna edilmək şərti ilə 247 səhifə və 278,240 işarədən ibarətdir.

DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **GİRİŞ** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilir və eyni zamanda tədqiqat işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqdavə işarə ilə ümumi həcmi barədə məlumat təqdim edilmişdir.

Dissertasiyanın I fəsil **"Funksional-sintaktik təhlilin nəzəri əsasları"** adlanır. Bu fəsildə araşdırılan məsələlər beş paraqrafda əhatə edilir. I paraqraf ***"17 pilləli səs sistemi" və "Pərdə yeri"*** adlı iki bənddən ibarətdir. Bu paraqrafda muğam musiqisinin səs sisteminin daxili quruluşu tədqiq olunur.


Səfiəddin Urməvinin 17 pilləli səs sistemini əks etdirən pərdə düzülüşünü qeyd edirik. Göstərilən səssırası f^k məqam sisteminə (f^k – kiçik oktavanın fa notu) əsaslanır. Bəqiyyə intervalı (90 sent, 4 komma, 1 limma) – B hərfi ilə, fəzlə intervalı isə (24 sent, 1 komma) – F hərfi ilə işarələnir.

Nümunə 1



Müasir İran muğam musiqisində məqamların səssıraları, o cümlədən İranın "Segah" muğam dəstgahına daxil olan məqamların səssıraları Əli Nəqi Vəzirinin[79] tərtib etdiyi çərək tonlu (1/4 ton) 17 pilləli səs sisteminə əsaslanır.


Nümunə 2



I paraqrafda 17 pilləli səs sisteminin öyrənilməsinin zəruriliyi əsaslandırılır, belə ki, muğamın məqam və melodik quruluşunun qanunauyğunluqları məhz bu səs sisteminə söykənir. Muğam melodiyasında səslərin qarşılıqlı əlaqəsi, məqam evlərinin və məqam dairələrinin müəyyənləşdirilməsi yuxarıda qeyd olunan səs sistemləri əsasında izah olunur. Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, "Zabul-Segah" və İranın "Segah" muğam dəstgahına daxil olan bölmələrin tonallıq və məqam münasibətləri Yaxın Şərq (Türkiyə, İran, İraq) məqam-pərdə sisteminə tam uyğundur.

"Zabul-Segah" dəstgahına aid məqam səssıralarının müntəzəm temperasiyalı səs sisteminə köçürülməsi nəticəsində baş verən interval dəyişikliklərini dəstgahın ümumi səssırasında qeyd edirik.

Nümunə 3.



"Pərdə yeri" 17 pilləli məqam-pərdə sistemində məqamların istinad pərdələrinin interval xüsusiyyətlərini müəyyənləşdirən termindir. Məqam-pərdə sistemində müəyyən məsafələrlə yerləşən üç qrup pərdə yeri onları əhatə edən xromatik intervallara görə bir-birindən fərqlənir. Pərdə yeri termininin öyrənilməsi sayəsində: 1) məqam sistemində yerləşən məqamların əsas tonallıqları və

[79] Vaziri A. N. Teoriye musigi. – Tehran.: Safialishah, – 2008. – 393 s.

transpozisiya tonallıqları; 2) məqam təbəqələri; 3) şəkildəyişmiş məqamlar müəyyənləşdirilir. “Zabul-Segah” və İranın “Segah” muğam dəstgahına daxil olan segah, muyə və hisar muğam bölmələrinin tonallıqları segah pərdə yerlərinə istinad edir.

“İdarəedici pərdələr” adlanan II paraqrafda “kök” və “şah” pərdələrdən bəhs olunur. Bütün muğamların qurulma prosesində istinad pərdənin idarəedici pərdələrə əsaslanaraq önə çıxarılması bir qanunauyğunluq kimi müəyyənləşdirilir.

Aşağıdakı not nümunəsində b^k-rast məqam dairəsində yerləşən g^k “Şur”, a^k “Segah”, b^k “Bayatı-Qacar” (rast məqam ailəsinə aiddir) muğamlarının əvvəlində baş verən proseslər göstərilir. Bu muğamların istinad pərdələrinin f^k müştərək alt kök pərdəyə və c^1 müştərək şah pərdəyə oriyentasiya etməsi aydın şəkildə izlənilir. Kök və şah pərdəyə dayaqlanmaqla onların arasında əmələ gələn gedişlər sayəsində səssırası gəzişilir və nəticədə öz təsdiqini tapır.

Nümunə 4.





Beləliklə, eyni məqam dairəsində yerləşən məqam özəklərinin təşəkkülündə müştərək kök pərdə və şah pərdənin idarəedici rolunun şahidi oluruq. Bu məqamların paralel səssıraya və müştərək idarəedici pərdələrə malik olması, onların qohumluq münasibətini ikiqat gücləndirir və aralarında müştərək idarəedici pərdələr vasitəsilə rahat keçid imkanları yaradır.

I fəslin III paraqrafı ***"Məqam evi" və "Məqam dairəsi"*** adlı anlayışların açılmasına xidmət edir. Məqam evi – hər hansı məqam səssırasının hər bir pərdəsinin qonşu pərdələr və idarəedici pərdələr arasındakı interval əsasında müəyyənləşən məqam mənsubiyyətini bildirən orta əsr anlayışıdır.

Məqam evinin funksiyaları:

1. Məqam evinin müəyyənləşdirilməsi nəticəsində verilmiş səssırası və istinad pərdəsi çərçivəsində mümkün olan proseslər kompleksinin proqnozu verilir, istinad pərdə ətrafında yaranan məqam özəyi haqqında təsəvvür əldə edilir.

2. Məqam evinin tələbləri əsasında qurulan sadə məqam özəyi bu özəyə əsaslanan məqamları qruplaşdırır.

3. Məqam evinin müəyyənləşdirilməsi sayəsində verilmiş məqam özəyinin digər məqamlarla münasibəti proqnozlaşdırılır.


4. Bir məqamın istinad pərdəsindən alt və üst hissəsi fərqli məqam evinə aid olduqda mürəkkəb məqam evi yaranır. Bu halda bir istinad pərdəsində iki natamam məqam evi birləşir.

Təhlil olunan muğam dəstgahlarının tərkibindəki segah, muyə, manəndi-hisar (İranda hisar adlanır) məqamları həm alt, həm də üst tərəfdən segah məqam evinə aiddir. Manəndi-Müxalif və zabul məqamları isə istinad pərdədən alt və üst tərəfdən fərqli məqam evlərinə aiddir. Manəndi-Müxalif məqamının istinad pərdədən alt tərəfi II növ segah məqam evinə, üst tərəfi isə yekgah məqam evinə aiddir. Zabul məqamının istinad pərdədən alt tərəfi dügah məqam evinə, üst tərəfi isə II növ segah məqam evinə aiddir.

"Zabul-Segah" dəstgahına daxil olan muğam bölmələrinin məqam evləri və onların istinad pərdələrinə kök pərdələrdən yanaşma


sxemləri təqdim olunur. Kök pərdələrlə istinad pərdə arasındakı münasibət oxla işarələnmişdir.

Nümunə 5.




Orta əsr musiqişünaslığında paralel məqamların dairə əmələ gətirməsi rast, şur, segah (Orta əsrlərdə rast, hüseyni, iraq adlanan) məqam qrupunun timsalında, qeyri-müntəzəm və müntəzəm temperasiyalı səsdüzümündə aşağıdakı kimi təsvir olunur.

Nümunə 6.




"Məqam dairəsi" qohum məqamların eyni idarəedici pərdələrlə çərçivələnən hissəsidir. Məqam dairəsi alt tərəfdən kök pərdə, üst tərəfdən isə şah pərdə ilə hədlənir. İstinad pərdələri b^k rast (aydınlıq üçün bir oktava yuxarı yazılmışdır) məqam dairəsində yerləşən şur, segah və rast məqamları nümunə kimi göstərilir. Göründüyü kimi, bu məqamlar müştərək alt və üst kök pərdəyə, həmçinin müştərək şah pərdəyə malikdir.

Nümunə 7.




“Zabul-Segah” dəstgah bölmələrinin aid olduqları məqam dairələri və məqamların istinad pərdələrinin mövqeləri qeyd olunur.

Nümunə 8.



I fəslin dördüncü paraqrafı ***“Səmtləşmə”, “Gedişlər”, “Zirvə pərdə”, “Qapayıcı pərdə” və “Ayaq etmə”*** adlı bəndlərdən ibarətdir. Muğam strukturunun I inkişaf mərhələsində, ifa prosesi zamanı istinad pərdəsinin aid olduğu məqam dairəsinin idarəedici pillələrinə doğru “səmtləşmə”si (oriyentasiyası) baş verir. Bu zaman həmin idarəedici pərdələrin həm öz aralarında, həm də məqamın istinad pərdəsi ilə qarşılıqlı münasibətindən yaranan melodik hərəkət axınları “gediş”lər kimi dəyərləndirilir. Dörd sayda gediş müəyyən olunmuşdur: dayaqlama gedişi, çəkilmə gedişi, qaytarma gedişi, enmə gedişi. Tədqiqat prosesində müəyyənləşdirilmiş dörd gediş tipinin hər biri spesifik funksional xüsusiyyətə malikdir.

Nümunə 9.



Nümunə 10.



Enən istiqamətli çəkilmə, enmə və xüsusilə xarici enmə gedişlərinin əvvəlində bir qayda olaraq gedişin baş səsindən yüksəkdə yerləşən və vurğulanan pərdəyə “zirvə pərdə” deyilir. Zabul muğamının “ayaq etmə” hissəsində zirvə pərdənin vurğulanmasına dair nümunə təqdim olunur.

Nümunə 11.



“Qapayıcı pərdə” məqam səssırasının strukturunda pərdə vəzifəsini ifadə edən nəzəri termindir.

1. Kök pərdədən aşağıda yarımton (və ya böyük yarımton) intervalında yerləşən səs melodik hərəkətdə kök pərdəyə yardımçı komponent kimi qoşulduğu təqdirdə, həmin pərdənin qapayıcı funksiyası formalaşır.


2. Hər hansı bir məqamın istinad pərdəsindən aşağıda yarımton (və ya böyük yarımton) məsafədə yerləşən səs kadensiya prosesində istinad pərdəsinə yardımçı element kimi bağlandıqda, həmin istinad pərdəsinin qapayıcı pilləsi rolunda çıxış edir.

Muğamlar məqam sistemindəki mərtəbələrinə və ifadə etdikləri musiqi fikrinin genişliyinə görə kök və budaq (əsil-fərr, əsas və törəmə) məqam qruplarına təsnif olunur. Müəyyən edilmişdir ki, kök muğam sinfinə aid nümunələrin tamamlayıcı kadensiya (ayaqetmə) prosesi “böyük ayaq” adlanır. Budaq məqam sinfinə aid olan muğam şöbələrinin tamamlayıcı kadensiyasında isə xüsusi şah pərdədən aşağıda yerləşən pərdənin vurğulanmasına “kiçik ayaq”, yaxud sadəcə “ayaq” deyilir. Beləliklə, kök muğamların ayaqetmə hissəsinin strukturu budaq muğamların quruluşundan məhz zirvə pərdəsinin yüksəkliyi ilə fərqlənir.

I fəslin V paraqrafı ***“Gedişlərin muğam ifaçılığı prosesində sınaqdan keçirilməsi”, “Məqamdaxili inkişaf mərhələləri” və “Naxışlar”*** adlı bəndlərə həsr edilib. Məqamdaxili gedişləri izləmək məqsədilə, xanəndə Şəkili Ələsgərin (1866–1929) və onu müşayiət edən tar alətinin audioyazısından nota köçürülmüş “Orta Segah” muğam şöbəsinin birinci inkişaf mərhələsi nəzərdən keçirilir.

Nümunə 12.





İnstrumental partiyada gedişlərin ardıcıllığı aşağıdakı kimidir: Ix $c^1 \rightarrow e^1$ dayaqlama gedişi, IIx $e^1 \rightarrow c^1$ çəkilmə gedişi, IIIx $c^1 \rightarrow e^1$ dayaqlama gedişi, IVx $e^1 \rightarrow c^1$ çəkilmə gedişi, Vx $f^1 \rightarrow c^1$ çəkilmə gedişi, VIx $f^1 \rightarrow c^1$ çəkilmə gedişi, VIIx $c^1 \rightarrow g^1$ qaytarma gedişi, VIIIx $g^1 \rightarrow e^1$ ($g^1 \rightarrow f^1 + f^1 \rightarrow e^1$) enmə gedişi ilə qərar etmə.

Vokal partiyada gedişlərin ardıcıllığı aşağıdakı kimidir: Ix $c^1 \rightarrow e^1$ dayaqlama gedişi, IIx $e^1 \rightarrow c^1$ çəkilmə gedişi, IIIx $c^1 \rightarrow e^1$ dayaqlama gedişi, IVx $e^1 \rightarrow c^1$ çəkilmə gedişi, Vx $e^1 \rightarrow c^1$ çəkilmə gedişi, VIx $c^1 \rightarrow g^1$ qaytarma gedişi, VIIx $g^1 \rightarrow e^1$ ($g^1 \rightarrow f^1 + f^1 \rightarrow e^1$) enmə gedişiylə qərar etmə. Bu təhlildə yalnız gedişlər göstərilmişdir.


Məqam təşəkkülü prosesində iki inkişaf mərhələsi nəzərə çarpır. I inkişaf mərhələsi istinad pərdədən aşağıda və yuxarıda yerləşən idarəedici pərdələr arasında, yəni məqam dairəsində baş verir. II inkişaf mərhələsinin əvvəli istinad pərdə ilə ondan yuxarıda yerləşən idarəedici pərdə arasındakı münasibət üzərində qurulur və həmin ərazinin melodik baxımdan doldurulması prosesi reallaşır.

I inkişaf mərhələsində alt kök pərdə aktiv, üst kök pərdə isə passiv xarakter daşıyır. Bu zaman üst kök pərdə alt kök pərdəyə nisbətdə vasitəçilik funksiyasını təmin edir. II inkişaf mərhələsində

isə funksionallığı əksinədir: üst kök pərdə aktivləşir, alt kök pərdə passivləşərək üst kök pərdəyə qarşı vasitəçilik missiyasını öz üzərinə götürür.

Kök məqamların II inkişaf mərhələsində onların məqam əhatəsi ən azı xüsusi şah pərdəyədək genişləndirilir. Budaq məqamlarda isə bu proses xüsusi şah pərdəyədək genişlənmir və melodik hərəkət daha məhdud çərçivədə inkişaf edir. Segah məqam evinə mənsub olan məqamların I, II inkişaf mərhələlərinin gediş sxemləri:

Nümunə 13.



Muğam melodiyasında ritmik quruluşu və pillə münasibətləri sabit qalan, lakin məqam əsası dəyişə bilən müxtəlif həcmli meloritmik (melodik və ritmik) qəliblər ("naxışlar") mövcuddur. Həmin naxış formulları tətbiq etdiyimiz xüsusi qaydada işarələnmişdir. Nəriman Məmmədovun notlaşdırdığı "Segah-Zabul"[80] dəstgahının "Zil Zabul" şöbəsində ifa olunan //122/12// formulalı naxış:

Nümunə 14.



Dissertasiyanın II fəsli **"Azərbaycanın "Zabul-Segah" və İranın "Segah"** instrumental muğamlarının funksional-sintaktik təhlili" adlanır. II fəslin I paraqrafı ***"Zabul-Segah" instrumental muğamı",*** II paraqrafı isə ***"İranın "Segah" instrumental muğamı"*** adlanır. Təhlil prosesində muğamların daxili quruluşundakı struktur elementlərinin funksionallığı araşdırılır və onların muğam kompozisiyasındakı əhəmiyyəti üzə çıxarılır.

"Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" instrumental muğamlarının müqayisəli təhlili", dissertasiyanın III fəslində təqdim edilir. Bu fəsil, ***"Naxışlar, məqamların səssıraları, istinad və qərar pərdələri"*** və ***"Məqam səssıralarının pərdə vəzifələri, I – II inkişaf***

[80] Məmmədov, N.H. Azərbaycan muğamları, Zabul Segah və Rəhab. – Bakı.: Azərnəşr, – 1965. – 58 s.


mərhələləri və gedişlər" adlı iki paraqrafdan ibarətdir.

Aparılan müqayisələr nəticəsində həmin muğamların bənzər və fərqli cəhətləri, həmçinin melodik və ifaçılıq xüsusiyyətləri aydınlaşdırılır.

Aşağıdakı nümunədə "Zabul-Segah"[81] və İranın "Segah"[82] instrumental muğam dəstgahlarına daxil olan e^1 segah ilə e_{kr}^1 segah məqamlarının I inkişaf mərhələsində baş verən gedişlərin sxemləri eyni tonallıqdan qeyd olunur.


Nümunə 15.

E^1 Segah



Nümunə 16.

E_{kr}^1 Segah



E_{kr}^1 segah məqamının səssırası İranın 17 pilləli səs sistemində, e^1 segah məqamının səssırası isə bərabər temperasiyalı səs sistemində qurulmuşdur. Bu səssıralarındakı fərq mikroton interval əmələ gətirən pərdələrlə əlaqədardır. Buna baxmayaraq, e_{kr}^1 segah və e^1 segah məqamlarının pərdələri eyni funksiya daşıyır. Əsas funksional pərdələr aşağıda qeyd olunur.

[81] Əsədullayev, A. Şur, Segah-Zabul, Şüştər. – Bakı.: Adiloğlu, – 2006. – 64s.

[82] Hooshang, Z. Elementary Radif for Tar end Setar. Tehran.: Mahoor İnstitute of Culture and Art, 2007. 149 s.


Nümunə 17.

e^1 segah məqamı	e_{kr}^1 segah məqamı
c^1 alt kök pərdə	c^1 alt kök pərdə
e^1 istinad pərdə	e_{kr}^1 istinad pərdə
f^1 üst kök pərdə	f^1 üst kök pərdə
g^1 şah pərdə	g^1 şah pərdə
b^1 ikinci üst kök pərdə, xüsusi zirvə pərdə	b^1 ikinci üst kök pərdə, xüsusi zirvə pərdə

E^1 segah məqamı səssırasında ciddi əhəmiyyət kəsb etməyən d^1 pərdəsi alterasiyaya uğrayan, dəyişkən pərdədir. Melodik fəaliyyətdə daha çox artırılmış şəkildə (dis^1) özünü göstərir.

E_{kr}^1 segah və e^1 segah məqamlarının I inkişaf mərhələsində onların istinad pərdəsinin f^1 rast məqam dairəsində yerləşən idarəedici pərdələrə səmtləşməsi (oriyentasiya) baş verir. Bu iki məqamın istinad pərdəsinin ucalığında ¼ ton fərq var.

Nümunə 18.



Səmtləşmə nəticəsində əmələ gələn gedişlərin ardıcıllığının və formulalarının ciddi fərqlənmədiyi izlənilir.

E_{kr}^1 segah məqamında, $c^1 \rightarrow e_{kr}^1$ dayaqlama gedişi, e^1 segah məqamında $c^1 \rightarrow e^1$ dayaqlama gedişi. E_{kr}^1 segah məqamında $e_{kr}^1 \rightarrow c^1$ çəkilmə gedişi, e^1 segah məqamında $e^1 \rightarrow c^1$ çəkilmə gedişi. E_{kr}^1 segah məqamında $c^1 \rightarrow g^1$ qaytarma gedişi, e^1 segah məqamında $c^1 \rightarrow g^1$ qaytarma gedişi. E_{kr}^1 segah məqamında $g^1 \rightarrow f^1 + (f^1)g^1 \rightarrow e_{kr}^1$ enmə gedişi, e^1 segah məqamında $g^1 \rightarrow e^1$ enmə gedişi.

Hər iki ölkənin "Segah" muğam variantlarının ifaçılıq xüsusiyyətlərində müəyyən paralel və fərqli cəhətlər aşkar olunur. İran "Segah" muğamında dayaqlama gedişi nadir halda, həm də ötəri şəkildə ifa edilir. Azərbaycan "Segah" muğamında isə dayaqlama gedişi çox işlənir. Eləcə də dayaqlama gedişinin I hissəli və II hissəli gediş hazırlığı ilə başlanmasının variantları daha çoxdur. Dayaqlama gedişinin fərqli tərzdə təkrar edilmələri də səciyyəvidir.

İran “Segah” muğamında çəkilmə-qaytarma gedişləriylə instrumental təfsirdə nadir halda qarşılaşa bilərik, vokal təfsirdə də az işlənir. Azərbaycan “Segah” muğamında isə çəkilmə-qaytarma gedişlərinin qovuşuq və ayrı ifa variantları, həmçinin, bu gedişlərin yarım gedişlərə bölünərək, geniş ifa olunma variantları çoxdur.

Enmə gedişi qərar etmə ilə başa çatdığı üçün, Azərbaycan və İran variantlarında yarım gedişlərə bölünərək geniş şəkildə ifa edilir. Azərbaycan ifaçılığında yarım gedişlərin daha çox təkrarlanması və təkrarlarda fərqli ifadə vasitələrinin, naxışların işlədilməsi izlənilir.

İran “Segah” muğamının ifasında əsasən II inkişaf mərhələsi aktivdir, alt məqam ərazisi çox zaman passiv qalır. Azərbaycan “Segah” muğamının ifasında istinad pərdədən üst və həmçinin alt məqam zonalarının aktivliyi izlənilir.

Azərbaycan və İranın tarixin müəyyən dövrlərində vahid dövlət tərkibində olması bu xalqların musiqi mədəniyyətinin, o cümlədən muğam sənətinin ortaq ənənələr əsasında formalaşmasına, eləcə də analoji təkamül prosesi keçirməsinə şərait yaratmışdır. Bundan belə bir nəticəyə gəlmək olar ki, hər iki ölkədə eyniadlı muğam dəstgahlarının və eyniadlı muğamların mövcudluğu təsadüfi deyil. Funksional-sintaktik təhlil metodunun nəzəri əsasları və bu metodologiya əsasında aparılan muğam təhlili bir sıra mühüm elmi nəticələrin ortaya çıxmasına səbəb olmuşdur:

1. Azərbaycan muğam musiqisinin Yaxın Şərq musiqişünaslığında (Azərbaycan, Türkiyə, İran və İraq ənənələri nəzərdə tutulur) ənənəvi muğam (makam, maqam) sisteminin etalon səs sistemi kimi qəbul edilən 17 pilləli səs sisteminə əsaslandığı elmi dəlillərlə sübut edilir. Bu kontekstdə pərdələrin ənənəvi adlandırılması sistemi göstərilir. Qeyd olunan səs sisteminin interval strukturu Səfiəddin Urməvinin nəzəri əsərlərində sistemləşdirilmiş və elmi cəhətdən şərh olunmuşdur.

2. İlk dəfə olaraq irəli sürülmüş aşağıdakı elmi müddəalar aparılmış tədqiqat əsasında öz təsdiqini tapmışdır: 1) 17 pilləli pərdə sisteminin və bu sistemə əsaslanan məqam sisteminin Azərbaycan muğam musiqisində f^{k} səsinə (pianoda e^{k} səslənir) “ümumi baş pərdə” statusunda istinad etdiyi; 2) tar alətinin (Azərbaycan muğam musiqisinin səs sistemini əks etdirən göstərici alət kimi qəbul edilir)

qolunda 17 pilləli pərdə sisteminin əsas çalğı telləri arasında eyni interval strukturuna malik kvarta hissələrinə bölünməsinin "dügah" pərdə yerindən başlandığı[83].

3. İlk dəfə olaraq 17 pilləli səs sistemində pərdələrin interval münasibəti əsasında qruplanması müəyyənləşdirilir və bu qruplaşma "pərdə yeri" termini ilə elmi dövriyyəyə daxil edilir. Azərbaycan muğam tonallıqlarının müvafiq pərdə yerlərinə istinad etdiyi göstərilir, həmçinin bu tonallıqların transpozisiyasında pərdə yerlərinin funksional əhəmiyyəti əsaslandırılır.

Bununla yanaşı, Azərbaycan muğam nəzəriyyəsində muğam tonallıqlarının sistemli xarakter daşıdığı və f^k məqam sisteminə uyğun şəkildə yerləşdiyi müəyyən edilir. Xüsusilə, "Zabul-Segah" muğam dəstgahına daxil olan muğam tonallıqlarının f^k məqam-pərdə sistemindəki mövqeyi göstərilir.

4. Azərbaycanın "Zabul-Segah" və İranın "Segah" muğam dəstgahlarının məqam evlərinin müəyyənləşdirilməsi və bu əsasda baş verə biləcək melodik gedişlər elmi cəhətdən proqnozlaşdırılır. Beləliklə, segah, muyə və hisar məqam özəklərinin segah məqam evinə aid olduğu üzə çıxarılır. Əldə edilən bu nəticə göstərilən məqamların eyni məqam özəyinə malik olmasını, habelə istinad pərdələri ilə idarəedici pərdələr arasında eyni interval məsafəsində baş verən gedişlərin səbəbini elmi cəhətdən əsaslandırır. Bundan əlavə, mürəkkəb məqam evinə aid olan zabul məqam özəyinin alt tərəfdən dügah, üst tərəfdən isə II növ segah məqam evinə mənsub olması müəyyən edilir; eyni qaydada, manəndi-müxalif məqam özəyinin üst tərəfdən yekgah məqam evinə, alt tərəfdən isə II növ segah məqam evinə mənsub olduğu aşkarlanır. Aparılan təhlil prosesində "Zabul-Segah" və İranın "Segah" muğam dəstgahlarına daxil olan muğamlarda baş verən gedişlərin müvafiq məqam evlərinə (üst və alt məqam evi) uyğunluğu müəyyənləşdirilir.

5. Məqam dairəsi termini əsasında eyni idarəedici pərdələrə malik olan qohum məqam evlərinin qrupları müəyyənləşdirilir. Bu

[83] Qeyd etmək lazımdır ki, 17 pilləli pərdə sisteminin tellər arasında bölgü prinsipi Yaxın Şərqin Orta əsr musiqi risalələrində və müasir məqam nəzəriyyələrində ud alətinin qolu üzərində də əks olunur. Ud alətinin qolunda da tellər kvarta intervalı ilə köklənir və hər bir boş tel "dügah" pərdə yerindən başlanır.

əsasda, yanaşı yerləşən məqam istinad pərdələrinin müştərək kök pərdə və şah pərdə ilə fərqli intervalda yerləşməsinin səbəbi elmi cəhətdən əsaslandırılır. Bundan əlavə, müştərək kök pərdə və şah pərdə vasitəsilə məqamlar arasında yaranan keçid yolları müəyyən edilir. Məqam dairələri termini əsasında, müştərək idarəedici pərdələrə malik olub fərqli məqam dairələrinə aid olan məqam qrupları da üzə çıxarılır.

Nümunə olaraq, "Zabul-Segah" dəstgahına daxil olan e^1 segah, g^1 zabul və as^1 muyə məqam səssıralarında f^1 müştərək kök pərdə qismində çıxış edir. Eləcə də, İranın "Segah" dəstgahına daxil olan $e_{kr}{}^1$ segah, g^1 zabul və $a_{kr}{}^1$ muyə məqam səssıralarında f^1 müştərək kök pərdə rolunu oynayır. Eyni qaydada, g^1 zabul və c^1 manəndi-müxalif məqam səssıralarında isə as^1 müştərək kök pərdə kimi çıxış edir. Müştərək kök pərdə, adı çəkilən məqamlar arasında keçid vasitəsinə çevrilir.

6. Muğam dəstgahında yerləşən şöbələrin tonallıqları yüksəldikcə, onların quruluşunda tədricən kəskinləşən bəzi ümumi dəyişikliklər baş verir. Belə ki, ümumi baxımdan tempin yüksəlməsi, bəzi gedişlərin ləğv edilməsi, gedişlərə ayrılan ifadələrin konkretləşməsi, gedişlərin tədricən daha cəld hərəkətlə yerinə yetirilməsi, onların qovuşuq şəkildə ifası, gedişlərin təkrar edilmə sayının azalması və nəhayət, gedişlərin ümumiyyətlə təkrarlanmaması səciyyəvi xüsusiyyət kimi üzə çıxır. Bəzi gedişlərin ləğv edilməsinin mümkünlüyü onların digər gedişlərlə müqayisədə funksional əhəmiyyətinin nisbətən zəif olduğunu üzə çıxarır. Gedişlərin variantlığının hərəkət növləri ilə əlaqədar yarandığı təhlil prosesində izlənilir. Yalnız tamamlayıcı enmə gedişi bütün hallarda gecikdirmə üsulu ilə yerinə yetirilir.

7. Muğam melodiyasında baş verən əsas hərəkətlərin dörd gedişdən (dayaqlama, çəkilmə, qaytarma və enmə gedişləri) ibarət olduğu təhlil prosesində öz təsdiqini tapır. Məqam istinad pərdəsi ilə idarəedici pərdələr arasında baş verən bu gedişlərin hər iki dəstgahın təhlili zamanı öz funksional vəzifələrinə uyğun şəkildə ifa edildiyi müəyyən edilir. Eyni məqam evlərinə aid olan məqamlarda eyni interval məsafəli gedişlərin baş verməsi bütün muğam bölmələrində müşahidə olunur.

8. Muğamların (guşələr istisna olmaqla) daxili inkişafının əsasən iki mərhələdən ibarət olması ilk dəfə olaraq aşkar edilir və bu fakt aparılmış təhlillərlə təsdiqlənir. Şöbələrin tonallıqları yüksəldikcə, onların quruluşunda II inkişaf mərhələsinin tədricən qısaldığı, bəzi hallarda isə tamamilə ləğv olunduğu müşahidə edilir.

9. İdarəedici pərdələr kimi dəyərləndirilən kök və şah pərdənin funksional vəzifələri bir qanunauyğunluq kimi hər iki muğam dəstgahında izlənir. Hər iki dəstgahın müştərək muğam bölmələrində istinad pərdə ilə idarəedici pərdələr eyni pillə məsafəsində yerləşir və idarəedici pərdələrin funksionallığı bütün gedişlərdə müşahidə olunur. Kök pərdənin funksionallığı dayaqlama gedişində, şah pərdənin funksionallığı isə enmə gedişində özünü daha qabarıq şəkildə göstərir.

Aparılan müqayisəli təhlil nəticəsində Azərbaycan və İran xalqlarının muğam musiqisinin eyni nəzəri əsaslara malik olduğu sübut edilir.

Ümumi nəticə olaraq, fikrimizcə, muğam strukturuna fərqli baxışdan yanaşmaya əsaslanan təhlil metodu və məqam evi, məqam dairəsi, gedişlər kimi əhəmiyyətli terminlərin funksionallıqları aparılan təhlil nəticəsində özünü doğrultmuşdur. Göstərilən yeni terminlərin funksionallıqları muğam nəzəriyyəsinin təkmilləşməsinə, muğam terminologiyasının zənginləşməsinə öz töhfələrini verəcəyini düşünürük.

Fikrimizcə, muğam təhlilinin yalnız cümlələrlə (motiv, fraza, period) aparılması qənaətbəxş deyil. Çünki muğamın daxilində yerləşən bir sıra komponentlər var ki, onların bir-birindən ayrılmaları cümlə, fraza, motiv fikir vahidləriylə üst üstə düşmür. Bunlardan ən əhəmiyyətlisi gedişlərdir.

Gedişlər, muğam melodiyasının quruluşuna aid olan əsas fikir vahidləri olub, sintaktik vahidlərdən fərqli olaraq melodik materialın deyil, məhz muğam törənişində (icrasında) baş verən fəaliyyətin bölgüsünü əks etdirir. Muğam quruluşunun gedişlər əsasında təhlili, muğam icrasında baş verən ayrı-ayrı prosesləri bir-birindən fərqləndirməyə və hər birini funksional baxımdan dəyərləndirməyə imkan verir.

Təqdim olunan muğam strukturunun yeni təhlil metodunun, onun nəzəri əsaslarının muğamşünaslıq elminə və muğam tədrisinin inkişafına fayda verəcəyinə ümid edirik.

Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri dərc olunmuşdur:

1. "Müxalif" və "Manəndi-Müxalif" muğam şöbələrinə bir nəzər // – Bakı: Konservatoriya, – 2009, №3-4, – s. 135-148.
2. Muğam tonallıqlarının transpozisiya problemləri // – Türkiye: Rast uluslararası muzikoloji dergisi, – 2013, cilt 1., sayı 1. – s. 76-89.
3. "Hisar" şöbəsinin nəzəri və praktiki məsələlərinə dair // – Bakı: Konservatoriya, – 2016, №4(34), – s. 25-36.
4. Segah muğamı tarixi mənbələrdə // ISME – 2018 Beynəlxalq musiqi təhsili cəmiyyəti, 33-cü Dünya konfransı türk dünyası oturumu, – Bakı: – 15-20 iyul, – 2018, – s. 223-228.
5. "Segah-Zabul" və "Çahargah" muğam dəstgahlarının qarşılıqlı əlaqələri // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, – Bakı: – 22-23 noyabr, – 2018, – s. 484-487.
6. Muğam təhlili və terminologiyasının aktual məsələləri // – Bakı: Konservatoriya, – 2019, №3(45), – s. 4-23.
7. Makâsıdu'l Elhân çevirisi esâsında kitap tanıtımı // – Türkiye: Tokat, Yegâh uluslararası mûsikî dergisi, – 2019, cilt 2, sayı 2. – s. 142-144.
8. Türk müziği makam teorisi'nde "ev, hâne" kavramının esâsı: yegâh, dügâh, segâh evleri // – Türkiye: Karadeniz uluslararası bilimsel dergi, – 2020, sayı 47, – s. 423-437.
9. The comparison of Segah-Zabul dastgah with near east's ancient and contemporary makams // 6 th international Zeugma conference on scientific researches, – Gaziantep: – June 19-20, – 2021, – s. 69-70.
10. Segah-Zabul dəstgahı şöbələrinin Yaxın Şərqin qədim və müasir məqamları ilə müqayisə edilməsi // "Qloballaşan dünyada musiqi ənənələri" II Beynəlxalq elmi-praktik konfrans, – Bakı: – 14-16 noyabr, – 2022, – s. 304-313.
11. Segah muğamının mayə şöbəsinin seyr xüsusiyyətləri // Beynəlxalq rəqs gününə həsr olunmuş, beynəlxalq elmi simpoziumun materialları, – Bakı: – 2 may, – 2022, – s. 141-149.
12. Muğamın struktur təhlilinin yeni metodu // "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən elmi simpoziumun materialları, – Bakı: – 20-22 noyabr, – 2023, – s. 343-348.

Dissertasiyanın müdafiəsi 17 noyabr 2026-cı il tarixində saat 11:00 Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən FD 2.55 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Ə.Ələkbərov, 7.

Dissertasiya ilə Azərbaycan Milli Konservatoriyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Konservatoriyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.09.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 36668 işarə

Tiraj: 100 nüsxə